BUSINESS CONSULTING COMPANY

# MÜSTƏQİL AUDİTOR RƏYİ

**Bakı şəhəri** **18 mart 2020-ci il**

**Azərbaycan Respublikası Dövlət Sığorta Kommersiya Şirkətinin İdarə Heyətinə**

## AUDİTOR RƏYİ

Biz, Azərbaycan Respublikasının Auditorlar Palatası tərəfindən verilmiş AT/198 saylı 31 oktyabr 2019-cu il tarixli icazə əsasında fəaliyyət göstərən "Business Consulting Company" MMC Azərbaycan Respublikası Dövlət Sığorta Kommersiya Şirkətinin (bundan sonra Şirkət) 31 dekabr 2019-cu il tarixinə maliyyə vəziyyətinə dair hesabatından, məcmu gəlirlərə dair hesabatından, kapitalda dəyişikliklər hesabatından, habelə uçot siyasətinin əhəmiyyətli prinsiplərinin qısa təsviri də daxil olmaqla, maliyyə hesabatlarına qeydlərdən ibarət maliyyə hesabatlarının auditini aparmışıq.

Hesab edirik ki, əlavə edilmiş maliyyə hesabatları Şirkətin 31 dekabr 2019-cu il tarixinə maliyyə vəziyyətini, habelə maliyyə nəticələrini və göstərilən tarixlərdə başa çatan il üçün pul vəsaitlərinin hərəkətini Azərbaycan Respublikasının Mühasibat Uçotu Haqqında Qanununa və Milli Mühasibat Uçotu Standartlarına uyğun olaraq bütün əhəmiyyətli aspektlərdə ədalətli şəkildə əks etdirir.

### Rəy üçün əsaslar

Biz, auditi Beynəlxalq audit standartlarına (BAS) uyğun aparmışıq. Bu standartlar üzrə bizim məsuliyyətimiz əlavə olaraq hesabatımızın "Maliyyə hesabatlarının auditi üçün auditorun məsuliyyəti" bölməsində təsvir edilir. Biz Azərbaycan Respublikasındakı maliyyə hesabatlarının auditinə aid olan etik normaların tələblərinə uyğun olaraq Şirkətdən asılı deyilik və biz digər etik öhdəliklərimizi bu tələblərə uyğun yerinə yetirmişik. Hesab edirik ki, əldə etdiyimiz audit sübutları rəyimizi əsaslandırmaq üçün yetərli və münasibdir.

### Maliyyə hesabatlarına görə rəhbərliyin və məsul şəxslərin məsuliyyəti

Rəhbərlik maliyyə hesabatlarının Azərbaycan Respublikasının Mühasibat Uçotu Haqqında Qanununa və Milli Mühasibat Uçotu Standartlarına uyğun olaraq hazırlanmasına və düzgün təqdim edilməsinə və rəhbərliyin fikrincə, dələduzluq və ya səhvlər nəticəsində əhəmiyyətli təhriflərin olmadığı maliyyə hesabatlarının hazırlanmasına imkan verən zəruri daxili nəzarət sisteminin təşkilinə görə məsuliyyət daşıyır.

Maliyyə hesabatlarını hazırladıqda, rəhbərlik Şirkəti ləğv etmək və ya işini dayandırmaq niyyətində olmadığı, yaxud bunu etməkdən başqa münasib alternativ olmadığı halda, rəhbərlik Şirkətin fasiləsiz fəaliyyət göstərmək qabiliyyətinin qiymətləndirilməsinə, müvafiq hallarda fasiləsiz fəaliyyətə aid olan məsələlər haqqında məlumatların açıqlanmasına və mühasibat uçotunda fasiləsiz fəaliyyət prinsipinin istifadə edilməsinə görə məsuliyyət daşıyır. İdarəetməyə məsul şəxslər Şirkətin maliyyə hesabatlarının təqdim etmə prosesinə nəzarətə görə məsuliyyət daşıyır.

**Maliyyə hesabatlarının auditinə görə auditorun məsuliyyəti**

Bizim məqsədimiz maliyyə hesabatlarında bir tam kimi, əhəmiyyətli təhriflərin olub-olmadığına dair kafi əminlik əldə etmək və rəyimin də daxil olduğu auditor hesabatını təqdim etməkdir. Kafi əminlik əminliyin yüksək səviyyəsidir, lakin o BAS-lara uyğun aparılmış auditin əhəmiyyətli təhrifləri hər bir halda aşkar edəcəyinə zəmanət vermir. Təhriflər dələduzluq və ya səhvlər nəticəsində yarana bilər və ayrılıqda yaxud məcmu olaraq, istifadəçilərin belə maliyyə hesabatları əsasında qəbul etdikləri iqtisadi qərarlarına təsir etmə ehtimalı olduğu halda əhəmiyyətli hesab edilir.

**"Business Consulting Company" MMC-nin direktoru:** **Rəhman Məmmədov**

**"Business Consulting Company" MMC-nin auditoru:** **Rəhman Məmmədov**

Azərbaycan Respublikası Məhdud Məsuliyyətli Cəmiyyəti BUSINESS «CONSULTING» COMPANY Limited Liability Company Azerbaijan Republic

Bakı, Azərbaycan Respublikası
18 mart 2020-ci il